*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2024*
*Səh. 392-397*
https://doi.org/10.62837/2024.3.392

**BABAYEVA NURAY GÜNDÜZ**
*Bakı Slavyan Universiteti*
*E-mail: babayevanuray@icloud.com*

# “ƏDİRNƏ FƏTHİ” PYESİNİN QƏHRƏMANLARI DASTAN QƏHRƏMANLARI KONTEKSTİNDƏ

***Açar sözlər:*** *Cəfər Cabbarlı, dastan, qəhrəman, “Ədirnə fəthi”, Rüfət*
***Key words:*** *Jafar Jabbarli, epos , hero, "Conquest of Edirne", Rufat*
***Ключевые слова:*** *Джафар Джаббарлы, эпос, герой, «Покорение Эдирне», Руфат*

Bir çox sənətkarlar kimi Cəfər Cabbarlı da poet strukturunda xalq ənənəsi xüsusi yer tutan sənət nümunələri ərsəyə gətirmişdir. “Nəsirəddin şah”(1916), “Tarblis müharibəsi”(1917) , ”Ədirnə fəthi”(1917), “Od gəlini” (1927), “1905-ci ildə” (1931) və s. əsərlərində bu ənənədən qaynaqlanmışdır.

Dastan qəhrəmanlarının xarakterik xüsusiyyətlərini nəzərdən keçirək:

1. Dastan qəhrəmanının kifayət qədər cəsarətli, mərd və qorxmaz olmalıdır. Elə bu səbəbdən də dastanlarda həmin obrazlar "qəhrəman", "alp", "igid", "ərən" adlandırılır.

2. Bu qəhrəmanlar fiziki qüvvəsi ilə yanaşı mənəvi cəhətdən də dözümlü olurlar.

3. Heç bir halda məqsədlərindən dönmür, ölüm təhlükəsi belə onun üçün maneəyə çevrilmir, sona qədər mübarizə aparır.

4. Daimi hərəkət halında olan dastan qəhrəmanı təbiətlə iç-içə olmağı da bacarır. Onların mübarizəsi təkbaşına və ya qeyri-real, fövqəl gücə malik yardımçı qüvvələrin köməyi ilə baş tutur.

5. Ayrı-ayrı dastan qəhrəmanlarının məxsusi xüsusiyyətləri olmaqla yanaşı, onları birləşdirən ən mühüm nüanslardan biri at, qılınc və s. kimi köməkçi vasitələr və döyüş yoldaşlarının olmasıdır.

6.Onların böyük qismi doğulan andan etibarən güclü, qeyri-adi keyfiyyətlərə malik olurlar. Qəhrəmanın həyatını təfsilatı ilə deyil, daha çox şücaət göstərdiyi dövr daha aydın təqdim edilir .

7. Bəzi dastan qəhrəmanları qeyri-adi şəkildə böyüyürlər. Onların böyüməsi ay, bəzən isə bir neçə gün içərisində də ola bilir və göstərdikləri qəhrəmanlığa görə ad alırlar.

8.Ən çox diqqət çəkən nüanslardan biri bir qrup dastanlarda qəhrəman dünyaya gəlişinin qeyri-adi şəkildə baş verməsidir. Bu, övladı olmayan ana-atanın övlad arzularının gec də olsa reallaşması ilə baş tutur. "Ağır və təbii olmayan bir şəkildə uzun zaman çəkən doğum gələcəkdə qəhrəman olacag bir körpənin dünyaya gələcəyinin xəbərçisidir.”[4] Çox zaman ya reallıqda, ya da yuxuda bu müjdəni

dərviş obrazları verir. Bu hal türk dastanlarının böyük bir qismində olduğundan aşağıdakı dastanlara diqqət yetirək:

"Kitabi- Dədə Qorqud" dastanında Dirsə xan obrazı təşkil edilən qonaqlığa qara otaqda qarşılanır və ona digər bəylər kimi xüsusi diqqət və hörmət göstərilmir. Bunun səbəbi isə Dirsə xanın övladsızlığıdır. Yoldaşının göstərişi ilə qonaqlıq təşkil edən xan edilən dualar sayəsində bir övlad sahibi olur. "Dirsə xanın etdiyi yaxşılıqlara qarşılıq Tanrıdan istənilən şeyin gerçəkləşməsinə inam İslamiyyətdəki adağa bənzəməkdədir." [7,31]

"Manas" dastanının qəhrəmanı Manasın da dünyaya gəlişini 14 il gözləyən Yaqub xan və yoldaşı Çırıçı sonda arzularına çatır. Onun dünyaya gəlişi Oğuz xaqanla olduqca bənzərdir. Manas təsvir edilərkən ağbəniz, ağ dərili, sümükləri kirəmit rəngi olduğu bilərək vurğulanır ki, bunun səbəbi də "Ağ rəngin türk mifologiyasında mavi kimi Göy Tanrının rəngi sayıldığından kirəmit rəngi isə qızıl, qırmızı kimi qüvvəti, güc və savaş tanrılarının rəngini simvolizə edir. Bununla da, Manasda Tanrıdan gələn müqəddəsliyin olduğunu və bu müqəddəsliyin onun fiziki xüsusiyyətlərində təzahür etdiyi vurğulanır." [3]

Fikrimizi Çobanoğludan gətirdiyimiz istinad ilə təsdiq edə bilərik: "Türk dastanlarının çoxunda qəhrəman hələ ana bətninə düşməzdən əvvəl "fövqəladə", yəni Tanrı və ya İlahi qüvvələr tərəfindən bənzər bacarıq və güclərlə mükafatlandırılmaq, doğulan andan etibarən bir və ya bir neçə gündə böyümək, süd yerinə ət, çörək, su, şərab istəmək, qısa zamanda danışmaq, hələ körpə ikən gələcəkdə edəcəyi fəthlərdən xəbər vermək kimi qeyri-adi bacarıqlarla dünyaya gəlirlər."[2]

"Ədirnə fəthi" pyesinin dastanlarla paralel əlamətləri də kifayət qədərdir. Pyesin Rüfət obrazı dastanların əsas qəhrəmanları kimi digər obrazlardan fərqlənir. Digərlərindən daha mərd, cəsur və güclü olmaqla hər zaman, hətta yuxusunda da vətəni müdafiə hissi ilə yaşayan obrazdır. Məqsədindən dönməyən Rüfət mübarizəsində vətən uğrunda ölməyə hazır olduğunu, qorxudan özünü düşmən gülləsinə atmaqla xilas olmağı seçmədiyini vurğulayır. Uğrunda mübarizə apardığı idealı bütün dastan qəhrəmanlarında olduğu kimi şəxsi maraqlardan uzaqdır. Zöhrə ilə söhbətindən bəllu olur ki ki, Rüfət xoşbəxt yaşaya biləcəkıəri halda vətən uğrunda ölməyi seçir.

"Bu pyes C.Cabbarlının türkçülük ideyalarının yüksək bədii səviyyədə estetik təcəssümü olmaqla bərabər, sənətkarın islam xalqlarının birliyinin onların taleyində həlledici faktorlardan olduğunu sübut edən əsərdir." [6, 22-23]

Rüfət-Zöhrə xəttində dastanlarla paralel cəhətlər də çoxdur. Onların tanışlığı ya yuxuda buta verilməsi ilə ya da qəhrəmanlıq göstərərkən baş tutur. Zöhrə də döyüşlərin birində yaralı zabitlərə tibbi yardım göstərərkən gənc zabitlərdən birinin üzərinə sürətlə gəldiyini görüb huşunu itirmişdi. Bu zabit Rüfət idi. Dastanlarda olduğu kimi, iki tərəfin də məhəbbət hissləri zamanla artır və bir-birindən xəbərsiz

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2024*
*Səh. 392-397*
qovuşanadək o hiss ilə yaşayırlar. Maraqlısı isə burasındadır ki, Rüfət dastan qəhrəmanlarının bir çoxu kimi Zöhrəyə hələ döyüşdən əvvəl, Zöhrə onu görmədən İstanbulda olarkən görmüş, ona qarşı məhəbbət hissləri yaranmışdır.

Qəhrəman-sevgili xəttində qəhrəman obrazları ilə yanaşı qadın obrazlar da mərd olur və ən çətin məqamlarda düşmənə baş əymir. Pyesdə bolqar əsgərləri Zöhrə ilə birlikdə digər türk qızlarını əsir götürürlər. Xalid Zöhrəni xilas etməyi təklif etsə də o, rəqib tərəf olduğundan Zöhrə ölümü seçir.

Dastanlarda mütləqdir ki, qəhrəmanın rəqibi olsun, onunla mübarizədə özünü təsdiq etsin. Rüfətin də rəqibi Xaliddir. Doğrudur, ilk vaxtlar Xalidi döyüş yoldaşı hesab edir, Zöhrəyə məhəbbətini ilk dəfə onunla bölüşür. Lakin, Xalid öz xislətini gec-tez bəlli edir.

Rüfət-Zöhrə xəttində ən böyük maneə olan Xalid dastanlardakı düşmən obrazını təmsil edir. Xalidlə paralel olaraq Kamal da xain obrazındadır. Lakin, rəqib deyil….

Dastan qəhrəmanları mübarizəsinə maneə törədən bütün qüvvələrə hətta doğmaları da olsa düşmən mövqedə dayanır. Pyesin Qalib obrazı vətən uğrunda mübarizəsində atası Kamalın vətən xaini olduğunu öyrənir. “Səni də öldürərəm, böylə təhlükəli bir zamanda millətimə xəyanət edən hər bir adamı təlin edər, onu itlər kimi həlak edərəm.”[1,163]

Hər bir dastanda qəhrəmana çətin anlarda real və ya fövqəl-təbii qüvvə kimi yardımçı obraz köməklik göstərir. Son anda Zöhrə ilə bağlı məlumatları, onun Xalid tərəfindən qaçırılmasını, ümumilikdə baş verənləri İnci xəbər verərək Rüfətə köməklik göstərir. Xalid Zöhrəyə məhəbbət bəsləsə də onun öz bacısı olduğunu öyrənməsi dastanlarda ən çox rast gəlinən hallardan biridir. Nəzərə alaq ki, onun öz bacısına məhəbbət bəsləməsi dastanlarda olduğu kimi etnosun istəyinə uyuğun deyildir. Buna görə də sonda Xalid etdiyi əməllərin intiqamını özünü öldürərək alır.

Əsərdə prototip obraz da vardır. “Azərbaycan dramaturgiyasında, xüsusən də C.Cabbarlının “Ədirnə fəthi” əsərində mətnə əsaslanaraq Atatürkə müraciət haqqında mülahizələr irəli sürmək olar. Bu halda, Atatürk obrazının dram əsərində yaradılmasında ilkinlik Türkiyə dramaturqu Münir Hayrı Egelinin əsərindən daha önə keçir….. Əsərdə adı keçən başqa tarixi şəxsiyyətlərlə bir sırada Mustafanın təqdimi, Trablis və Ədirnə savaşlarında Mustafa Kamalın həqiqi iştirakı və göstərdiyi tarixi şücaətlər bu obrazın prototipinin Atatürk olması ehtimalını gücləndirir.” [5, 58-59]

Əsərin tarixi hadisəyə həsr olunması, gerçəkliklə səsləşməsi ondan tarixi dram kimi bəhs etməyə əsas verir. C.Cabbarlı digər tarixi dramlarında olduğu kimi “Ədirnə fəthi”ndə də xalq yaddaşından və qəhrəmanlıq dastanlarından ustalıqla bəhrələnilmişdir.

## ƏDƏBİYYAT

1.Cabbarlı,C. Əsərləri: [4 cilddə] /C.Cabbarlı.–Bakı:Şərq-Qərb,–c.2.–2005.– 359 s.

2. Çobanoğlu, Ö. Türk Dünyası Epik Destan Geleneği / Ö. Çobanoğlu. –Ankara: Akçağ yayınları,–2007.–256 s.

3. Çoruhlu, Y. Türk Mitolojisinin Ana Hatları / Y.Çoruhlu. –İstanbul: Kabalcı yayınevi,–2007.–185 s.

4. Jirmunskiy,V.M.Türk Kahramanlık Destanları/V.M.Jirmunsky. tərc.: Mehmet İsmail ve diğerleri/ Ankara:Türk Dil Kurumu yayınları,–2011.–210 s.

5. Məmməd, T. Milli kimlik və bədii mətn / T. Məmməd. – Bakı:Elm və təhsil,– 2020. –141 s.

6. Salamoğlu T. Sənətkar dünyagörüşünün ziqzaqları // 525-ci qəzet.–2019, 3 aprel.– s. 22-23

7. Kalkan A.F. Türk destanlarında kahramanın olağanüstü doğumu // Türk dünyası qəz.–2016, № 42.– s. 47

**Babayeva Nuray Gündüz**

## "ƏDİRNƏ FƏTHİ" PYESİNİN QƏHRƏMANLARI DASTAN QƏHRƏMANLARI KONTEKSTİNDƏ

### Xülasə

Yazılı və folklor ədəbiyyatı arasında qarşılıqlı münasibəti daim diqqət mərkəzində saxlanılmışdır. Cəfər Cabbarlı yaradıclığında folklor ənənəsinə xas struktur element və motivlərə müraciət etmişdir.Sənətkar bir çox əsərlərində olduğu kimi tarixi dramlarından olan "Ədirnə fəthi" pyesində də hadisə və obrazları, qəhrəmanlıq və məhəbbət xəttini ustalıqla təqdim etməklə öz dövründə dastan ənənələrinin dirçəlməsinə, milli intibah ideallarının inkişafına təsir etməsinə şərait yaratdi. Tədqiqata cəlb etdiyimiz "Ədirnə fəthi" pyesini dastanlarla paralel araşdırdıqda ortaq məqamlar kifayət qədərdir. Dastan qəhrəmanlarının xarakter keyfiyyətləri pyesin obrazları – Rüfət, Zöhrə, Xalid və s. kimi obrazların fəaliyyəti ilə ortaqdır.Paralel əlamətlər qəhrəman tiplərdə, qəhrəman-sevgili münasibətlərində aydın müşahidə edilir. Həmçinin xalqın qəhrəmana münasibəti, onlara güc, qüvvət, ədalət, torpaq təəssübkeşi kimi yanaşması eyni ilə pyesdə əks edilmişdir. Dastan əsas qəhrəmanları ilə yanaşı silahdaşlarının yerinə yetirdiyi funkasiya da ortaq cəhətlərdəndir.Bu cəhətləri müqayisəli araşdırmaq, obrazların fərdi xüsusiyyətləri, qəhrəman-sevgili münasibəti, düşmən və yardımçı qüvvələrin dastan poetikası ilə tipoloji tədqiqi ortaq məqamları aydın görməyə kömək edir.

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2024*
*Səh. 392-397*

**Babayeva Nuray Gunduz**

## THE HEROES OF THE PLAY "CONQUEST OF EDIRNA" IN THE CONTEXT OF THE HEROES OF THE EPIC

### Summary

The interaction between written and folklore literature has always been in focus. In his work, Jafar Jabbarli applied structural elements and motifs specific to the folklore tradition. As in his many works, the artist influenced the revival of epic traditions and the development of national renaissance ideals by masterfully presenting events and characters, heroism and love in the play "Conquest of Edirne", which is one of his historical dramas. made it possible. When we examine the play "Conquest of Edirne" in parallel with the epics, there are enough points in common. The character qualities of the heroes of the epic are the characters of the play - Rufat, Zohra, Khalid, etc. parallel signs are clearly observed in hero types and hero-lover relationships. Also, the attitude of the people to the hero, their approach to them as power, strength, justice, and bigots of the land is also reflected in the play. Along with the main heroes of the epic, the function performed by the comrades-in-arms is also one of the common aspects. Comparative study of these aspects, individual characteristics of the characters, hero-lover relationship, enemy and auxiliary forces, and the typological study of the poetics of the epic helps to clearly see the common points.

**Бабаева Нурай Гюндуз**

## ГЕРОИ спектакля «ЗАВОЕВАНИЕ ЭДИРНЫ» В КОНТЕКСТЕ ГЕРОЕВ ЭПОСА

### Резюме

Взаимодействие письменной и фольклорной литературы всегда было в центре внимания. В своем творчестве Джафар Джаббарлы применил характерные для фольклорной традиции структурные элементы и мотивы.Как и во многих своих произведениях, художник повлиял на возрождение эпических традиций и развитие идеалов национального Возрождения, мастерски представив в произведениях искусства события и характеры, героизм и любовь. пьеса «Покорение Эдирне», одна из его исторических драм, сделала это возможным. Если рассматривать пьесу «Покорение Эдирне»

параллельно с былинами, то точек соприкосновения достаточно. Качествами характера героев эпоса являются персонажи пьесы - Руфат, Зохра, Халид и др. параллельные признаки отчетливо наблюдаются в типах героев и в отношениях герой-любовник. Также в пьесе отражено и отношение народа к герою, его отношение к нему как к власти, силе, справедливости и фанатикам земли. Наряду с главными героями эпоса к числу общих аспектов относится и функция, выполняемая соратниками.Сравнительное изучение этих аспектов, индивидуальных особенностей персонажей, взаимоотношений героя и любовника, противника и вспомогательных сил, а также типологическое изучение поэтики эпоса помогает ясно увидеть общее.

***Rəyçi: f.e.dr., prof. T.Q. Məmməd***